Xalqın sözü haqq sözüdür

# LERİK




Azərbaycan dünyaya günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*


**№ 16-17 (569-570)** **27 iyul 2018-ci il** **Qəzet 1937-ci ildən çıxır** **Qiyməti 40 qəpik**


# Lerikin sosial-iqtisadi inkişafı sürətlənir

***Lerik Rayon İcra Hakimiyyəti başçısı yanında rayon rəhbərliyinin, hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərlərinin, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, ağsaqqallar, gənclər və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə "Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasından irəli gələn vəzifələr və 2018-ci ilin birinci yarısında Lerik rayonunda görülmüş işlər, qarşıda duran vəzifələr" barədə Şuranın geniş iclası keçirildi.***






Şura iclasını giriş nitqi ilə açan Lerik Rayon İcra Hakimiyyəti başçısı Rövşən Bağırov bildirdi ki, Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı qeyd etmişdir ki, ölkəmiz cari ilin ilk yarısında uğurla inkişaf etmiş, nəzərdə tutulan bütün vəzifələr yerinə yetirilmişdir.

Ölkə rəhbəri hesabat dövründə iqtisadi sahədə əldə edilən uğurlardan danışarkən, iqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci bir dövlət olmadığını, hətta böhranlı illərdə belə respublikamızın öz iqtisadi gücünü qoruduğunu, böhrandan az itkilərlə çıxdığını diqqətə çatdırdı.

Cənab Prezidentin həyata keçirtdiyi uğurlu siyasət nəticəsində Azərbaycanın daha da gücləndiyini və beynəlxalq əlaqələrimizin getdikcə dərinləşdiyini diqqətə çatdıran natiq qeyd etdi ki, ölkə başçısı tərəfindən həyata keçirilən uğurlu iqtisadi reformalar rayonumuzun da sosial-iqtisadi inkişafına ciddi təsir göstərmişdir.

Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və rayonumuzun sosial-iqtisadi inkişafına hesablanmış digər Fərman və Sərəncamlar rayonumuzda uğurla icra edilir.

Havaların yağmurlu keçməsi səbəbindən və qış aylarında rayonumuzda tikinti-abadlıq işlərinin aparılması mümkün olmadığından, 2018-ci il üçün nəzərdə tutulmuş işlərin həyata keçirilməsinə əsasən aprel ayından başlanılmışdır. Şəhərin su və kanalizasiya sisteminin yenidən qurulması ilə bağlı qazılmış küçə və meydanların asfaltlandırılması, şəhərdə mövcud olan fəvvarələr və kommunal binalarda təmir, xiyaban və parklarda dağılmış sahələrin bərpası, istinad divarlarının qurulması, işıqlandırma sisteminin yenilənməsi işləri həyata keçirilir. Kənd təsərrüfatı sahəsində də qarşıya qoyulan vəzifələr uğurla icra edilir. Hazırda taxıl biçini kampaniyası davam etdirilir.

Daha sonra rayon icra hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Habil Məlikov geniş məruzə ilə çıxış etdi.

Şura iclasında rayon kənd təsərrüfatı idarəsinin rəisi Mahmud Zahidov, təhsil şöbəsinin müdiri Zöhrab Salayev, elektrik şəbəkəsinin rəisi Namiq Quliyev və tarixçi Hüseynbala Əliyev çıxış edərək görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verdilər.

Şura iclasına yekun vuran rayon icra hakimiyyətinin başçısı qarşıya qoyulmuş vəzifələrlə bağlı aidiyyəti idarə və təşkilat rəhbərlərinə müvafiq tapşırıq və tövsiyələrini verdi.

Bildirdi ki, sürətlə inkişaf edən Azərbaycan bu gün bütün dünyanın diqqət mərkəzindədir. Ölkəmizin həyata keçirdiyi qlobal layihələr regional və beynəlxalq əməkdaşlığa töhfə verdiyi kimi, görünür, bəzi dairələrin də maraqlarına uyğun gəlmir.

Bu il Cümhuriyyətinin 100 illik yubileyini qeyd edən, sabitlik adası olan qüdrətli Azərbaycanın uğurlarını həzm edə bilməyən erməni və ermənipərəst antiazərbaycan qüvvələr zaman-zaman olduğu kimi, yenə də respublikamızda qarışıqlıq salmağa çalışırlar. Ancaq onlar unudurlar ki, Azərbaycan ötən əsrin 90-cı illərinin əvvəllərindəki Azərbaycan deyil. Ölkə iqtidarı istər daxili, istərsə də xarici antiazərbaycan qüvvələrin bu cür məkrli niyyətlərinin qarşısını almağa qadirdir. Bu gün ölkəmizdəki xalq-iqtidar birliyini, inkişafı, sabitliyi heç bir qüvvə poza, müstəqilliyimizi sarsıda bilməz. İyulun 10-da Gəncədə baş verən hadisələrdən də bir daha göründü ki, xalqımız heç vaxt bu cür ünsürlərə meydan verməyəcəkdir. Azərbaycanın müstəqilliyi əbədidir, dövlət idarəçiliyi etibarlı əllərdədir, xalq-iqtidar birliyi möhkəmdir, sarsılmazdır.

Şura iclasında qeyd olunan təkliflər və qarşıda duran vəzifələrlə bağlı müvafiq qərar və Azərbaycan Respublikası Prezidentinə müraciət qəbul olundu.



# Şuranın növbəti iclasında

Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasında rayon icra hakimiyyəti başçısı yanında rayon rəhbərliyinin, hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə, təşkilat rəhbərlərinin, ərazi icra nümayəndələri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Şuranın növbəti iclası keçirildi.

Lerik Rayon İcra Hakimiyyəti başçısı Rövşən Bağırov tədbir iştirakçılarını salamlayaraq 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibəti təbrik etdi. Sonra Şura iclasının gündəliyində duran məsələlər barədə məlumat verdi.

Şura iclasında "Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2012-ci il tarixli 648 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin tələblərinin, vətəndaş müraciətlərinə baxılması və sənədlərlə işin Siyov, Züvüç və Piran kənd ərazi icra nümayəndəliklərində yerinə yetirilməsi vəziyyəti barədə" və "Kirəvud kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyində çalışan işçilərin əmək intizamına riayət etməsi, vətəndaşların qəbulu, müraciətlərinin araşdırılması və sənədlərlə işin təşkili vəziyyəti barədə" Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Əlipənah Bayramovun arayışı dinlənildi.

Şura iclasında gündəlikdə duran məsələlərlə bağlı Çayrud kənd ərazi icra nümayəndəsi Xanlar Həmidov və Pirasora kənd ərazi icra nümayəndəsi Əligüşad Xalıqov çıxış etdilər.

Sonda çıxış edən RİH başçısı Rövşən Bağırov Şura iclasının gündəliyinə daxil edilmiş məsələ ilə bağlı görülən işlər və qarşıya qoyulmuş vəzifələrin icrasını təmin etmək məqsədi ilə aidiyyəti idarə və təşkilat rəhbərlərinə müvafiq tapşırıq və tövsiyələrini verdi.

Müzakirə olunan məsələ ilə bağlı Şura iclasında müvafiq qərar qəbul edildi.

# Azərbaycan polisi - 100



***Lerik Rayon İcra Hakimiyyəti başçısı Rövşən Bağırov, Azərbaycan Respublikası Milli məclisinin deputatı İqbal Məmmədovun, rayonun hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə polis işçilərinin peşə bayramı gününə və Azərbaycan Polisinin 100 illiyinə həsr olunmuş ümumrayon tədbiri keçirildi.***

Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdilər, abidənin önünə tər güllər düzdülər.

Tədbiri giriş sözü ilə rayon polis şöbəsinin rəisi, polis polkovniki Hüseynəli Məlikov açaraq tədbir iştirakçılarını salamladı və Azərbaycan Polisinin 100 illiyinə həsr olunmuş məruzə ilə çıxış etdi.

Milli Məclisin deputatı İqbal Məmmədov, rayon prokuroru Bəhruz İbrahimov, rayon məhkəməsinin hakimi Atabəy Kiçibəyov, DTX-nin Lerik rayon şöbəsinin rəisi Mirzə Kərimov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsinin rəisi Arif Həsənov, təqaüddə olan polis əməkdaşı Şahgəldi Əliyev çıxış polis əməkdaşlarını bayram münasibəti ilə təbrik etdilər və gələcək fəaliyyətlərində uğurlar arzuladılar.



Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov polis əməkdaşlarını peşə bayramları münasibəti ilə təbrik edərək çətin və şərəfli peşələrində uğurlar arzuladı. Polis orqanlarının keçdiyi şərəfli yoldan, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin dövlət strukturlarının, o cümlədən polis orqanlarının inkişafı və təkmilləşməsi üçün göstərdiyi diqqət və qayğını diqqətə çatdırdı, Ulu Öndərin siyasətinin Prezident İlham Əliyev tərəfindən inamla və uğurla davam etdirildiyini qeyd etdi. Gündən-günə inkişaf edən respublikamızda ictimai asayişin, vətəndaşların hüquq və azadlıqlarının qorunmasında polisin göstərdiyi xidmətlərdən danışdı.

Sonda rayon polis şöbəsinin bir qrup əməkdaşına rayonun ictimai asayişinin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə fəal iştiraklarına görə və Azərbaycan Polisi Günü münasibətilə rayon icra hakimiyyətinin Fəxri fərmanları təqdim edildi.

# Maarifləndirmə tədbiri keçirildi

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli və "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında" 10 yanvar 2018-ci il tarixli Sərəncamlarından irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə 2018-ci ilin 11 iyul tarixində Lerik rayonunun Heydər Əliyev Mərkəzində rayon ictimaiyyətinin nümayəndələri ilə maarifləndirmə tədbiri keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Ölkədaxili layihələr sektorunun müdiri Hacı Abdulla, Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Xalq Cümhuriyyəti tarixi" şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vasif Qafarov, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Cənub bölgəsinin şöbə müdiri Qağayı Məmmədov iştirak edirdilər.

Bilik Fondunun Ölkədaxili layihələr sektorunun müdiri Hacı Abdullanın "Azərbaycançılıq məfkurəsi, milli-mənəvi, dini dəyərlərimiz dövlətimizin siyasətində", Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Xalq Cümhuriyyəti tarixi" şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vasif Qafarovun "Azərbaycanın cənub bölgəsi Cümhuriyyət dövründə" mövzularında, eləcə də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Cənub bölgəsinin şöbə müdiri Qağayı Məmmədovun mühazirələri dinlənilmiş, tədbir iştirakçılarının sualları cavablandırılmışdır.



# Cəngəmiran kəndində vətəndaşlarla səyyar görüş-qəbul



***Rayon icra hakimiyyəti başçısı, hüquq mühafizə orqanlarının, əlaqədar idarə və təşkilat rəhbərlərinin iştirakı ilə Cəngəmiran kənd inzibati əraziləri üzrə Cəngəmiran və Perzəkücə kəndlərindən olan vətəndaşlarla səyyar görüş-qəbul keçirildi.***

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov görüş iştirakçılarını salamlayaraq bildirdi ki, cənab Prezidentin tapşırığına əsasən yerlərdə əhali ilə keçirilən səyyar görüş-qəbullar qrafikinə uyğun olaraq bu gün növbəti dəfə sizlərlə görüşürük. Belə görüşlərin keçirilməsində əsas məqsədin ərazilərdə əhalini narahat edən problemlərin öyrənilməsi, bu problemlərin həllinə nail olmaqla əhalinin rifah hallının daha da yaxşılaşdırılması istiqamətində işlərin görülməsinin vacib olduğunu qeyd etdi.

İcra hakimiyyəti başçısı regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar qəbul edilmiş Dövlət Proqramlarının uğurlu icrası nəticəsində ölkəmizin, o cümlədən rayonumuzun da inkişaf etdiyini, əhalinin rifah halının daha da yaxşılaşdığını vurğuladı.

Dövlət Proqramına uyğun olaraq rayonda, o cümlədən Cəngəmiran kənd inzibati ərazi dairəsi üzrə görülən və gələcəkdə görüləcək işlər barədə ətraflı məlumat verdi.



Səyyar görüş-qəbullarda çıxış edən vətəndaşlardan Mehrəli Rəhimov, Müşviq Məmmədov, Təyyar Mirzəyev, Adil Səmədov, Tofiq Səfərov və digərləri çıxış edərək görülən işlərə görə minnətdarlıqlarını bildirdilər və kənddaxili elektrik xətlərinin təmirinə, içməli su təminatının yaxşılaşdırılmasına, Cəngəmiran kəndində yeni məktəb binasının tikintisinə, kənddaxili avtomobil yolunun asfaltlaşdırılmasına, taxıl biçini ilə əlaqədar kombaynların gətirilməsinə və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş etdilər.

Səyyar görüş-qəbulda rayon icra hakimiyyəti başçısı vətəndaşlar tərəfindən verilmiş təklif və qaldırılan problemlərin icrasına nail olmaq məqsədilə görüləcək tədbirləri qeyd etdi, aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verdi.

**Kələxan, Daster və Bürsülüm kəndlərində səyyar qəbullar keçirilmiş, vətəndaşların irəli sürdüyü təklif və iradların icrası ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.**

# Yurdumu qoruyan ordum var!

## *Lerikdə çağırışçı gənclərin yolasalma mərasimindən qeydlər*



***Ana ağuşu canımızdı, Vətən ruhumuzun beşiyidi, əldə silah şanlı əsgər daim oyaq, gecə-gündüz keşikdədi!***

***Vətən hər oğula oğul demir: əməlinə, sevgisinə, çatdığı ocağın közünə baxır.***

***Məmməd Araz deyir: “Vətən mənə oğul desə nə dərdim, mamır olub qayasında bitərdim”. Sən də özünü bu səadətə çatmışların arasında gör, Azərbaycan əsgəri!***

***Sən ananı, atanı, demək insanları sevirsən. İnsanları sevməyən, əminliyinin keşiyini çəkməyən, Vətəni sevməz, yurd-yuvanın, el-obanın qədrini bilməz, Azərbaycan əsgəri!***

***Əsgər qardaşım, gözləyirsən Ali Baş Komandanın əmrini. Qarabağ torpağından silmək üçün yağı düşmən izlərini.***

***Azərbaycan əsgəri, hünərinlə azad etdin Bayraqtəpəni, Lələtəpəni!***

***Günnütdən məhrum etdin yağı düşməni!***

***Mətin ol, əsir yurd gözləyir səni, şəhid övladının gözü səndədir.***

***Yaxınlaşır son hücumun, zəfərin, Azərbaycan əsgəri!***



* * *

Bəli,zəfər marşına, uzun ayrılıqdan sonra Qarabağı azad etməyə, qələbə çalmağına az qalıb, mənim əsgər qardaşım!

Sən dünən məktəbli partası arxasında, ata-ana himayəsindəydin. İndi isə, maşallah böyümüsən, igidlər bulağından su içmisən. Bu gün sən uşaqlıq həyatından ayrılırsan, yeni bir aləmə qovuşursan, Vətənin çağırışına gəlmisən.

Əsgər paltarı geyməyə, silahı sinənə sıxıb and içməyə sayılı günlər qalıb. Bu gün ulu öndər Heydər Əliyevin Lerik şəhər mərkəzində əzəmətlə ucalan abidəsi önündə Milli Orduda



xidmət keçmək üçün yolasalma mərasiminə toplaşanlarla bir yerdəsən.

Hamı gəlib sizi yola salmağa, arzudan kam almağa...

Budur, Heydər Əliyev adına Mərkəzi Meydandayıq. Azərbaycanın Dövlət Himni səslənir. Simalarından mətinlik, mərdlik, kişilik yağan çağırışçılar öncə ümummilli lider Heydər Əliyev Mərkəzinə sıra ilə yollanırlar. Burada bələdçi qız onları Ulu öndərin çoxsahəli həyatı və dövlət xadimi kimi dünya şöhrəti qazanmasından danışır. Deyir ki, Heydər Əliyevin Azərbaycanın siyasi, iqtisadi və mədəni yüksəlişində, elmin, təhsil və səhiyyənin inkişafında əməyi çoxdur.Əgər Ulu öndər hakimiyyətə gəldiyi birinci dönəmdə Azərbaycanda iqtisadi yüksəlişin təməlini qoymasaydı, indiki uğurları qazanmaq çətin olardı. Hərbi məktəb və liseylərin təməli həmin



dövrlərdə qoyulub, zabit kadrları hazırlanıb. Müstəqillik illərində isə uzaqgörən siyasətçi Azərbaycan dövlətçiliyinin qorunması, ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin bərqərar olması, ordu quruculuğu sahəsində çox iş gördü. İlk növbədə atəşkəsə nail oldu, Azərbaycanı dirçəltmək üçün “Əsrin müqaviləsi”ni imzaladı. İşğal olunmuş torpaqları azad etmək üçün diplomatik gücünü əsirgəmədi...

Dövlət himni səsləndirildi. SHXÇDX-nin Lerik rayon şöbəsinin rəisi, polkovnik Arif Həsənov mərasimdə çıxış edərək dedi:

- Bu gün çox fərəhli gündür. Çağırışçılar hərbi hissələr yola salınır. Onlar ən müasir və güclü ordu sıralarına getməkdən qürur hissi duyurlar. Milli Ordumuzun təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Hakimiyyətə ikinci qayıdışı dövründə ordu quruculuğu ilə ciddi məşğul oldu. Cəbhə bölgəsinə getdi, səngərlərdə oldu, əlinə silah alıb əsgərləri Vətəni qorumağa ruhlandırdı. Nəticədə ordumuz Füzulidə düşməni sıxışdırdı, 25 kəndi azad etdi. Nizami ordu quruculuğuna başladı. Çünki güclü ordu - güclü dövlət demək idi. Bu gün dahi şəxsiyyətin ordu quruculuğu vəzifəsini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çox böyük uğurla icra edir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradda demişdir: “Ordumuzun döyüş qabiliyyəti artır. Mən dəfələrlə hərbi hissələrdə vəziyyətlə tanış olarkən qeyd etmişəm ki, Azərbaycanda çox yüksək vətənpərvərlik ruhu var. Azərbaycan ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir və bunu yaxın tarix göstərir”.

Cənubi Qafqazda lider dövlət olan Azərbaycanın artan iqtisadi imkanları ölkəmizdə ordu quruculuğu istiqamətində və müdafiə sənayesi sektorunda davamlı layihələrin həyata keçirilməsinə, yüksək inkişaf əldə olunmasına əhəmiyyətli baza yaradıb. Silahlı Qüvvələrimiz dünyanın 50 ən güclü ordusu sırasındadır. Torpaqlarımızın 20 faizinin işğal altında olması faktı Azərbaycanın təhlükəsizliyinin təminatı kimi Milli Ordunun qüdrətlənmə-



sini zəruri edir. Hərbi paradda Ali Baş Komandan İlham Əliyev deyib: “Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı - Azərbaycan ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərmişdir. Bir daha göstərmişdir ki, Ermənistan tərəfindən onların ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mif idi. Biz bu mifi darmadağın etdik. Biz onların illər boyu yaratdıqları dırnaqarası möhkəm müdafiə xəttini bir neçə gün ərzində yardıq, məhv etdik. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir”.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov üzünü gənc çağırışçılara tutaraq dedi:

- Hörmətli gənclər, sabahın yenilməz əsgərləri. Bu gün fərəhli gündür. Siz ordu sıralarına yola düşürsünüz. Siz gəncliyimizin ən qaynar, fərəhli çağlarınızı Milli Orduda keçirəcəksiniz. Unutmayın ki, vətən sizə güvənir. Siz vətənimizin torpaqlarının azadlığı uğrunda şəhid olmuş Milli Qəhrəmanlarımız Valeh Müslümovun, Rövşən Abdullayevin, Fərhad Ağayevin, Əsgər Əliyevin, Fəxrəddin Şahbazovun ardıcıllarısınız. Siz harada xidmət etməyinizdən asılı olmayaraq həmişə qəhrəmanlarımızın, rayonumuzun, valideynlərinizin adını uca



tutun, orduda şanlı Azərbaycan əsgəri kimi ləyaqətlə xidmət edin. Unutmayın ki, Vətən sizlərə güvənir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin 100 illiyi münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradda demişdir: “Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndiri. Bir daha Azərbaycan xalqını əmin edir ki, tam arxayın ola bilər. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır”.

Biz inanırıq ki, siz gənclər ordu sıralarında vətənə ləyaqətlə xidmət edəcək, peşəkarlığınızı artıracaq, müqəddəs borcunuzu şərəflə yerinə yetirəcək, komandirlərin əmr və tapşırıqlarına hər an hazır olacaqsınız...

Milli Qəhrəman atası Əlizaid Müslümov, Qarabağ müharibəsi əlili Veysəl Məlikov, YAP Lerik rayon təşkilatının aparat rəhbəri Elxan Qənbərov mərasimdə çıxış edərək çağırışçı gənclərə - hərbi hissələr yola düşənlərə xoş arzularını bildirdilər. Dedilər ki, Milli Ordumuz gündən-günə qüdrətlənir, sarsılmaz gücə malikdir. Onun sıralarında əsgəri xidmət keçmək böyük şərəfdir. Lerikdən əsgəri xidmətə gedən müdafiəçilər həmişə yüksək vətənpərvərlik nümunəsi göstəriblər. Onlar müstəqil respublikanın ərazi bütövlüyü uğrunda, işğal olunmuş torpaqların azad edilməsi üçün candan keçiblər.

Əsgər məmləkətin keşiyini çəkən, hər an Ali Baş Komandanın əmrini gözləyən, vətəni ruhunun beşiyi bilən, həmişə oyaq, vətənə dayaq fədakar insandır, hamıya nişandır!

Ordu sıralarında xidmətin böyük şərəf və məsuliyyət olduğunu bildirən rayon icra hakimiyyətinin başçısı gənclərə uğurlar arzuladı. Mərasim konsert proqramı ilə davam etdirildi.

Sonda gənc çağırışçılar Azərbaycan Bayrağının altından keçərək Vətənə sədaqətlə xidmət edəcəklərinə söz verdilər, ordu sıralarına fərəhlə yollandılar.



Yazıda sərlövhəyə çıxardığım ifadəyə qayıtmaq istəyirəm. Ordum varsa yurdum var. Geniş anlamda Vətənim var. Ordu onun qoruyucusu, təhlükəsizliyinin qarantıdır. Deməli, nə qədər ki, Azərbaycan əsgəri var, yurdum-yuvam, ana torpağım var! Ən əsası, müqəddəs, bölünməz, yenilməz, basılmaz Vətənim var! Bizə həyat bəxş edən, adı ana ilə qoşa çəkilən Vətən! Varlığım sənsən!

***İdris ŞÜKÜRLÜ***



# Ordumuz qələbəni sürətlə yaxınlaşdırır

Azərbaycanda ordu quruculuğunun müasir standartlara uyğun həyata keçirilməsi, döyüş hazırlığının müasir tələblərə cavab verə biləcək səviyyəyə çatdırılmasının prioritet vəzifələr kimi müəyyənləşdirilməsi ölkə ictimaiyyəti tərəfindən razılıqla qarşılanır. Çünki ordu məsələlərinə yüksək diqqət işğalçı Ermənistanla aparılan danışıqların ölkəmiz üçün ədalətli şəkildə yekunlaşması üçün Azərbaycanın üstünlüyünü təmin edir. Ermənistan tərəfi də bunu yaxşı anlayır və mövcud vəziyyətdən təlaş keçirir. 2016-cı ilin aprel hadisələri bunun əyani təsdiqi oldu. Atəşkəs dövründə cəbhə xəttində təxribatlar çox olub və bunların hər birinin qarşısı qətiyyətlə alınıb.

Bu gün fəxrlə deyə bilərik: Azərbaycanın Milli Ordusu öz əzəmətini dünyaya nümayiş etdirir. 100 yaşında olan Azərbaycan Silahlı Qüvvələri, həm də 26 iyun tarixinin bayram günü kimi qeyd edilməsinin 20-ci sevincini yaşadı. Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazasına, potensialına, malik olduğu insanlara nəzər yetirdikdə belə deyə bilərik ki, bu gün Azərbaycan Ordusu təkcə yerləşdiyi coğrafi məkanda, Cənubi Qafqazda deyil, eyni zamanda dünyada ən güclü və kifayət qədər maddi-texniki



bazaya malik ordularından biridir.

Şanlı ordumuz qarşısında qoyulmuş vəzifələrə nail olmağa qadirdir. 2016-cı ilin 4 günlük Aprel müharibəsi və uzun illər erməni işğalı altında olan Lələtəpənin azad edilməsi, Cəbrayıl rayonunun Cocuqmərcanlı kəndinə qayıdış, eyni zamanda Naxçıvan Muxtar Respublikasında Günnüt kəndi də daxil olmaqla 11 min hektar ərazinin düşmən nəzarətindən azad edilməsi məhz Azərbaycan Ordusunun malik olduğu güc, potensialın göstəricisidir. Eyni zamanda, bu Azərbaycan Ordusuna Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən göstərilən diqqət və qayğının ifadəsidir. Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakıda təşkil olunan təntənəli hərbi paradda nitq söyləyən Prezident İlham Əliyev Naxçıvan əməliyyatının yüksək məharətlə, peşəkarlıqla həyata keçirildiyini bildirib.

Azərbaycan Ordusunun uzun illərdən sonra tarixi torpaqlarımıza nəzarət etməsi mühüm nəaliyyətdir. Bu həm torpaqlarımızın işğaldan azad olunması, həm də kənd təsərrüfatı üçün yararlı torpaqlardan istifadə etməyə imkan yaranması deməkdir. Sərhəddə yerləşən bu yerlərin etibarlı müdafiəsi vətəndaşlara zəngin bitki örtüyündən səmərəli istifadə etməyə imkan verəcəkdir.

Bəli, şanlı Ordumuz qələbəni sürətlə yaxınlaşdırır. İşğala məruz qalmış Vətən torpağının tam azad edilməsinə az qalıb.

***Pərviz Ağaxanlı,***
***SHXÇDX-nin Lerik rayon şöbəsinin müfəttişi***

# Lerikdə tələbələrin arxeoloji düşərgəsi təşkil edilib



Lerikdə tələbələrin arxeoloji düşərgəsi təşkil edilib AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d. Ceyhun Eminlinin rəhbərlik etdiyi Antik dövr üzrə Lerik arxeoloji ekspedisiyası nəzdində respublikanın Ali təhsil müəssisələri tələbələrinin iştirak etdiyi Arxeoloji düşərgə elmi-tədqiqat fəaliyyətinə başlayıb.

İnstitutun İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tələbələrin Arxeoloji düşərgəsi Gənclər və İdman nazirliyi, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu və Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının birgə layihəsi kimi gerçəkləşdirilməkdədir.

Arxeoloji düşərgələrin təşkilində əsas məqsəd — Azərbaycan gənclərində vətənpərvərlik ruhunun tərbiyəsi, onlara Azərbaycan tarixi barədə əyani məlumatlandırma, elmi-tədqiqat fəaliyyətinə marağın aşılanmasıdır.



Gənclərimizə Vətən tarixinə sevgini aşılayan ali təhsil müəssisələrinin tələbələrindən ibarət arxeoloji düşərgələrin təşkili Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin26 yanvar 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın müvafiq bəndinə (Gənclərin elm, texnika, mədəniyyət, incəsənət sahəsindəki bacarıqlarını və təşəbbüskarlığını stimullaşdıran tədbirlər həyata keçirmək) və “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının 5.5.6 bəndinə (Yay tətili müddətində ali və orta ixtisas təhsili müəsissələri tələbələrinin iştirakı ilə arxeoloji və digər ixtisas qrupları üzrə təcrübə düşərgələrinin təşkil edilməsi) uyğun olaraq gerçəkləşir.

Arxeoloji düşərgə üzvü olan tələbələr Lerikin Gürdəsər kəndi yaxınlığındakı Piboztəpə antik dövr nekropolunda tədqiqatlar aparan ekspedisiyanın rəhbəri, arxeoloq, t.ü.f.d. Ceyhun Eminlinin diqqəti altında arxeoloji qazıntılarda bilavasitə iştirak edir, arxeologiya elmi, bölgənin və respublikamızın tarixi barədə geniş bilgilərə yiyələnir, Vətənimizin füsunkar bölgələrindən biri olan Lerikin gözəl təbiəti, tarixi abidələri, qədim keçmişi və etnoqrafik irsi ilə tanış olurlar.



Tələbələrin Arxeoloji düşərgəsi iyulun 20-dək tədqiqatlarda iştirak edəcək. Düşərgədə fəaliyyət göstərən tələbələrə Gənclər və İdman nazirliyi tərəfindən sertifikatlar təqdim olunacaq.

Ümumiyyətlə, hələ 2012-ci ildən etibarən Gənclər və İdman nazirliyi tərəfindən tələbələrin Arxeoloji düşərgələri təşkil edilməkdədir. Bu mühüm layihə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən də dəstəklənib.

Belə ki, 2012-2015-ci illərdə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, arxeoloq, t.ü.f.d. Ceyhun Eminlinin rəhbərliyi altında həm Qəbələ, həm də Lerik arxeoloji ekspedisiyalarının nəzdində respublikanın Ali təhsil müəssisələri tələbələrinin iştirak etdiyi arxeoloji düşərgələr fəaliyyət göstərib.



# “Asan xidmət” Lerikdə

İyun ayının 19-dan iyul ayının 7-dək “Asan xidmət”in səyyar avtobusu Lerik şəhər mərkəzində əhaliyə müxtəlif növ xidmət göstərmişdir. Ümumilikdə 1711 nəfər “Asan xidmət”ə müraciət etmiş, onların 1616 nəfəri xidmətdən yararlanmışdır.

Rayonun əhalisinə sənədlərin dəyişdirilməsi, kommersiya və vergi ödəyicilərinin qeydiyyatı, torpaq kadastorı barədə arayışların verilməsi, əmək pensiyalarının təyin edilməsi, vətəndaş vəziyyəti aktlarının dövlət qeydiyyatı, nigahın, doğumun qeydə alınması və digər notarius fəaliyyətinə dair xidmətlər göstərilmişdir.

***“Lerik”***

# Ürəyimiz yananda çay

Piran kəndində “Topxana” deyilən yer var. Bura Lənkəran və Lerik şəhərlərinin, sakinləri Tikəband, Hamart və Siyov kəndlərinə gedənlər qısamüddətli istirahət yeridir. Qonaqlar burada qarşılanır, yolçular burada yola salınır.



Təbii ki, “Topxana”ya yolu düşənlər buradakı eyniadlı çayxanaya mütləq baş çəkirlər. Onlar pürrəng çay içməmiş, dəmirağacının kölgəsində nəfəs dərməmiş çayxanadan uzaqlaşmırlar.

Nəriman Sultanov çay dəmləməyin texnologiyasını yaxşı bilir. O çay dəmləməyin sirlərini oğlu Romana da öyrətmişdir. Roman müxtəlif təbəqəli adamlara yüksək səviyyədə xidmət edir. Daşıdığı vəzifənin məsuliyyətini yaxşı başa düşür, öz işindən, sənətindən zövq alır. Heydər Qafarov, Ağamir Mirzəyev, Ələkbər Kamalov, Sabir Alxasov, 94 yaşlı Heydər Qafarov, Nizami Suvarov, Vaqif Hüseynov və başqaları Romanın peşəsinə vurğunluğundan, xidmət mədəniyyətindən həvəslə söz açdılar. Dedilər ki, ürəyimiz yananda çay içməkdən yaxşı nə var.

Biz də “Lerik” qəzetinin təmsilçiləri olaraq Roman Sultanovun xoş rəftarından, çevikliyindən, öz işinin ustası olmağından söz açmaqla həmkarları onun pürrəng çay sevdirməyi arzu edirik.

***Babək Şükürov***

# Heyvandarlıq mütərəqqi üsullarla inkişaf etdiriliməlidir

Ölkə iqtisadiyyatının qeyri-neft sektorundakı asılılığını minimuma endirmək, kənd təsərrüfatının ildən-ilə artımına nail olmaq, ərzaq təhlükəsizliyini təmin etmək qarşıda duran prioritet vəzifələrdən biridir.Ölkədə ərzaq sektorunun, xüsusi ilə də heyvandarlığın inkişafı, daha böyük məhsuldarlıq əldə etmək üçün Kənd Təsərrüfatı Nazirliyi təxirəsalınmaz tədbirlər həyata keçirir.Kənd Təsərrüfatı Naziri İnam Kərimov sahibkarlıq subyektləri ilə əlaqələrə üstünlük verir, bölgələrə mütəmadi olaraq səfərlər edir, sahibkarlarla görüşlər təşkil edir. Ortaya çıxa biləcək problemlərin vaxtında aradan qaldırılmasını məqsədəuyğun hesab edir.Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair “Strateji Yol Xəritəsi”nin 2016-201-ci illər ərzində həyata keçirilməsi hesabına ölkədə dayanıqlı inkişaf prinsiplərinə əsaslanmaqla, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emal sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması vacibdir.

Bu gün dünyanın hər yerində olduğu kimi, ölkəmizdə də ət istehsalına və istehlakçılara çatdırılmasına tələbat artmaqda davam edir.BMT-nin Ərzaq və kənd təsərrüfatı təşkilatının (FAO) məlumatına görə, dünyada ət istehsalı 2010-cu ildən 2019-cu ilədək ümumilikdə 23 faiz artacaqdır.Buna görə də heyvandarlığ mütərəqqi texnologiyalarla, ən müasir üsullarla inkişaf etdirilməlidir.

Müasir dünya təcrübəsi aqrar sektorun səmərəli inkişaf etdirilməsində nümunə ola bilər.Məsələn, Niderlandda torpaq sahələri çox olmasa da, hər fermer 100 nəfəri ərzaq məhsulları ilə təmin edir.Ekoloji təmiz məhsul istehsalına üstünlük verilir, mal-qaranın elit növləri yetişdirilir.Aqrar sektor qibtə ediləcək dərəcədə mexanikləşdirilib.Kənd təsərrüfatında işləmək üçün yüksək bilikli mütəxəssislər yetişdirilir.





Bu gün heyvandarlıqda əsas anlayış səmərəlilikdir.Yüksək reproduktiv keyfiyyətlərə və məhsuldar istifadənin uzunmüddətli olmasına, məhsuldarlığın erkən başlanğıcı və yüksək səviyyədə davamlı qorunmaq bacarığına, yüjsək keyfiyyətli və dəyərli qida məhsulları istehsalına nail olmağa, güclü immun sisteminə və sağlamlığa uyğunlaşmaq, qida maddələrindən və yem enerjisindən səmərəli istifadə etmək səmərəliliyin əsasını təşkil edir.

Müasir heyvan növlərindəki genetik potensialı daha effektiv şəkildə həyata keçirmək üçün, saxlanma və istehsal texnologiyasını inkişaf etdirməklə, rasionların və yemləmə sistemlərinin təkmilləşdirilməsi ilə yanaşı, baytarlıq və profilaktika üsulları, optimal peyvənd proqramları və dərman vasitələrinin müalicəsi, yem əlavələrinin tətbiqi ilə yemlərin həcməgediciliiyinin artırılması üsulları aktiv şəkildə inkişaf etdirilməlidir.

Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi üçün mütərəqqi yetişdirmə üsullarının, xüsusi ilə də biotexnoloji üsulların tətbiqi, yüksək seleksiya və damazlıq işlərinin həyata keçirilməsi alim və mütəxəssislər üçün vacib məsələdir.Avropa ölkələrində tez yetişən, ağırçəkili, yüksək ət çıxarına və yağsız ətə malik qoyun cinslərinin yaradılmasına olan tələbatının bir hissəsinin ödənilməsində önəmli yer tutur.

Azərbaycan Respublikasında bölgələr üzrə müxtəlif genefondlar əsasında heyvandarlığın inkişaf etdirilməsi çox vacibdir.Ekoloji təmiz məhsulun alınması üçün ekoloji bitkilərdən istifadə edərək, qidalanan, ağır ekstremal iqlim şəraitinə uyğunlaşıb dözə bilən, xəstəliklərə tutulmayan heyvanların yetişdirilməsi çox vacibdir.-Mövcüd resurslardan istifadə etməklə dözümlü, yeni heyvan tipləri vasitəsilə məhsuldarlığı yüksəltmək mümkündür.

***Mirzaid Qurbanov,***
***Lerik Rayon Kənd Təsərrüfatı İdarəsinin Bitkişilik və Heyvandarlıq Sektorunun baş məsləhətçisi***

# “Azad Təfəkkür” qəzetinin redaksiyasından

“Azad Təfəkkür” qəzetinin 26 iyun 2018-ci il tarixli sayında 2-ci səhifədə “Ana fərəhi, oğlul hünəri” adlı geniş yazı dərc edilmişdir. Həmin yazı qəzetdə dərc edildikdən sonra, yazıda adı çəkilən Əbülfəz kişinin övladları redaksiyaya zəng vuraraq öz narazılıqlarını bildirmişlər. Adı çəkilən yazının 5-ci sütununda, 6-cı abzasda Əbülfəz kişi ilə bağlı yazılan fikir və ifadələrdə yazını redaksiyaya təqdim edənlərin səhvi nəticəsində qeyri-obyektivliyə yol verilmişdir. Həmin yazının 5-ci sütununda 6, 7, 8, 9, 10, 11-ci abzaslarının əsas mətnə heç bir dəxli yoxdur.

Bu səhvə görə A.Muradov və N.Muradov, redaksiya Əbülfəz kişidən üzr istəyirlər.

# Böyrəkləri təmizləmək üçün ən təbii üsul



Böyrəkləri təmizləməklə yanaşı bir sıra toksin və ziyanlı maddələri orqanizmdən təmizləmək üçün təbii vasitələrdən də istifadə etmək mümkündür.

Ölkə.Az bu gün oxucularına ev şəraitində bu iş üçün nələr etməyin mümkün olduğunu araşdıracaq.

Böyrək orqanizmin ən önəmli orqanlarından biridir. Böyrək hormon istehsalı və qanın kimyəvi balansı ilə məşğul olan orqanlardan biridir. Əgər böyrək zədələnsə, orqanizmin bütün mexanizmi pozula bilər.

**Limon suyu**

**Lazımdır:**

- 2 xörək qaşığı zeytun yağı;
- 4 xörək qaşığı limon suyu;
- 2 stəkan su;
- 1 xörək qaşığı alma sirkəsi

Hazırlanması

Zeytun yağı ilə limon suyunu qarışdırın, için. Yarım saat sonra qalan limon suyunu və alma sirkəsini qarışdırıb için. Bu məhlul böyrək daşına səbəb olan simptomların təsirini azaldır və böyrəkdəki daşları əridir.

**Cəfəri çayı**

**Lazımdır:**

- 1 xörək qaşığı cəfəri;
- 1 xörək qaşığı bal;
- 4 xörək qaşığı su

Hazırlanması:

Suyu qaynadın, cəfəri əlavə edin və ocağı söndürün. 25 dəqiqədən sonra bal əlavə edin və qarışdırın. Çayı şüşəyə tökün və 3 gün ərzində istifadə edin.

**Gicitkən çayı**

**Lazımdır:**

- 1 xörək qaşığı gicitkən;
- 2 stəkan su

Hazırlanması

Suyu qaynadın, içinə 1 xörək qaşığı gicitkən əlavə edin. Böyrək iltihabına faydalı olan bu məhlulu səhər və axşam 1 stəkan için.

**Çəhrayı bəlğəmotu çayı**

**Lazımdır:**

- 2 xörək qaşığı bəlğəmotu kökü və yarpaqları;
- 2 stəkan su

Hazırlanması:

Suyu isidin və çəhrayı bəlğəmotu kökü və yarpaqlarını əlavə edin. Ocağı söndürün, 10 dəqiqə gözləyin və çayı süzün. 7 gün gündə iki dəfə içmək məsləhətdir.

**Kərəviz suyu**

**Lazımdır:**

- 3 xörək qaşığı iyli kərəviz;
- 1 stəkan su

**Hazırlanması:** Kərəviz çubuqlarını təmizləyin, doğrayın və su ilə birlikdə blenderdən keçirin. Süzün və ən azı bir ay müddətində gündə bir stəkan için.

## Elan

Tikəbənd kənd sakini Abışov Hacıhəsən Qələm oöluna verilmiş TN-0001 kod: 80320005 saylı “Torpaq mülkiyyəti haqqına dair dövlət aktı” sənədi naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.

---

Lerik Rayon Baytarlıq İdarəsinin Blaband kənd sahə məntəqəsinə məxsus “Baytar müfəttişi” dairəvi möhürü itdiyi üçün ütibarsız sayılır.

## Allah rəhmət eləsin!

İdris Şükürlü, Baba Tağıyev, Nuruş Novruzov, Vəligülla Alışov, Bəxtiyar İbrahimov Şaiq Fazilova, qardaşı

**İdrət Fazilovun**

vaxtsız vəfatından kədərlənir, mərhumun ailəsinə başsağlığı verirlər.

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və “Lerik” qəzetinin redaksiyası
H/№AZ05AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Nizami küçəsi
Tel: (070) 520-73-91

Qəzet “Son Dakika” MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Tiraj: 500
Sifariş: 487

